


# Uşaqlıqdan, gənclikdən boylanan illər...

İnsan ömrünün hər günü bir hekayə, hər ili bir dastan, yaşadığı illər isə bir epopeyadır. Hər insanın ömrü qələmə alınsa, dastan yazılsa, həyat yeksənək olar, yaşam tərzi öz məna çalarını itirər. Ancaq ömrün seçilən anları var və o anlar ümumilikdə bir toplumun, bir elin, obanın həyatında maraq doğuran hadisəyə çevrilərsə, bax, o zaman məhz o anları qələmə almaq ətraf aləmdə maraq doğurur.

Son vaxtlar məzunların toplum halında görüşlər keçirməsi artıq ənənə şəklini almaqdadır. İstər orta məktəb, istərsə də ali məktəb məzunlarının onilliklər-yubiley illərini keçirməsi onların həyat tərzinə müsbət mənada təsir edir, həm ailələri arasında bir doğmalıq hissi, həm də iş və həyatının bütün növbəti davamı boyu bir yaxınlıq, qarşılaşdıqları problemlərin həll olunmasında hərtərəfli birgəlik yaranır. Məhz bu baxımdan belə görüş-tədbirlərin keçirilməsinin insan həyatında öz dəsti-xətti vardır.

Məlumdur ki, rayonumuzun da bir çox məktəblərində orta məktəb məzunlarının “20 ildən sonra” görüş tədbirləri mütəmadi olaraq keçirilir. Ancaq son bir neçə ildir ki, ölkəmizin bir çox bölgələrində “50 ildən sonra” məzunların görüş tədbirləri keçirilir. Belə görüşlərdən biri də Vəndam qəsəbə 1 saylı tam orta məktəbində keçirilmişdir. Rayonumuzun həmişə öndə olan 143 yaşlı Vəndam qəsəbə 1 saylı tam orta məktəbi həm də pilot məktəbdir.

Məktəbin 1975 - 1976-cı il 35-ci buraxılışı olan məzunlar avqust ayında birgə tədbir keçirdilər. Tədbirdə Xa, Xb, Xv, Xs siniflərinin məzunları və müəllimləri iştirak etmişlər.





Tədbirin aparıcısı Turaz.TV.az saytının redaktoru, “Ədalət və həqiqət” qəzetinin redaktoru, AJB-nin üzvü, Qızıl qələm mükafatı laureatı Mehman Mahmudoğlu olmuşdur. Qeyd edək ki, Mehman Mahmudoğlu uzun müddət Qəbələdə əmək fəaliyyətində olmuşdur.

Məzunlarla görüş günü... Uşaqlaşan, gəncləşən; ailə qayğılarından, həyati problemlərdən uzaq olan, uşaqlıq, gənclik arzularının təkrar yaşanıldığı bir gün... Gözlər önündə yarım əsr əvvəldən yaşanılan ömrün saralmış illəri onlara əl edir. Ancaq bahar qoxulu, bəzən də payız rəngli o illər ömürlərinin qan yaddaşı! Acılı-şirinli xatirələrlə bəzənmiş yarım əsrlik bir zaman simalarında ömrün payızının izlərini həkk edib, uca dağlarda bəyazlıq rəmzi olan “qar-qış ömrü” onlara “astana qapısı açır...”

Keçmişdən boylanan hər ilin nişanələri bu günki 67-68 yaşlı məzunların gözlərinə, simasına iz salan “şırımlarda”, müdriklik rəmzi olan ağsaqqal, ağbirçək adlarında, yerişində, baxışında, sözündə-söhbətində canlı tarix kimi hiss olunur. Məhz buna görə də məktəbə vida etdikləri günlərdən keçən 50 ildən sonra bir görüşün həsrətinə son qoyuldu...

Tədbirdə əvvəlcə müəllim və məzunlar məktəbin qarşısındakı Azərbaycan Respublikasının Milli Qəhrəmanı, general-mayor, ən başlıcası eloğluları olan Polad Həşimov və Vəndam şəhidlərinə həsr olunmuş xatirə kompleksində şəkilləri əks olunmuş şəhid lövhələri önünə gül düzmüş, kəndin imamı şəhidlərin ruhuna “Yasin” oxumuşdur.

Himn çalındıqdan və şəhidlərin, eləcə də dünyasını dəyişən müəllimlərin və məzunların ruhları bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbir davam etmişdir.

Tədbirdə çıxış edən müəllimlər və məzunlar məktəb kollektivinin, eləcə də məzunların dünəni və bu günü haqqında çıxışlar etmişlər. Xatirələr çözələnmiş, məzunların uğurları və ölkəmizə layiqli kadrlar kimi xidmət etmələri haqda danışmışlar. Qeyd edək ki, tədbirdə ölkəmizin müxtəlif bölgələri ilə bərabər xarici ölkələrdə yaşayan və çalışan məzunlar da iştirak etmişlər. Onlardan biri Türkiyə, Kocaeli Universiteti, professor, doktor Zahir Seyidməmmədov idi. Qonaq məzunlar da tədbirdə fəallıq göstərmiş və yarışmalarda fəallıqlarına görə fərqlənmişlər.

İstər ali və orta ixtisas təhsilliləri, istərsə sadə peşə sahibləri, həyatın müxtəlif sahələrində çalışan məzunlar həm iş həyatında, həm də əsl vətəndaş kimi püxtələşmiş, valideyn kimi də bu günkü həyatımıza savadlı və əməksevər övladlar yetişdirmişlər. Onlar arasında nəvə və nəticə sahibləri də vardır.

Tədbirdə maraqlı viktorinalar, mahnı, şeir, rəqs və ən maraqlı xatirə söyləyənlər arasında yarışmalar keçirilmiş və qaliblər mükafatlandırılmışdır.

Onu da qeyd edək ki,qəzetimizin məsul redaktoru, 5 kitab (bu kitablardan 4-ü şəhidlik mövzusundadır) müəllifi Bibixanım İsayeva da bu məzunlardan biri, həmçinin tədbirin təşkilat komitəsinin ən fəal üzvlərindən biri olmuşdur. Onun timsalında məzunları təbrik edir, sağlam ömür, davamlı belə görüşlər arzulayırıq!

Tədbir iştirakçıları belə görüşlərin yalnız yubiley göstəricilərini əks etdirən illərdə deyil, davamlı olaraq hər il keçirilməsini qərarlaşdırmışlar. Bu isə ən doğru qərardır. Axı həyat davam etsə də dünya fani... ömür isə... dünyanın gərdişi ilə öz davamında...

**İlahə EYVAZLI,**
**“Qəbələ səsi”**

# Asudə vaxtın təşkili həmişə diqqət mərkəzində olmalı



Gənclərin asudə vaxtının təşkili onların dünyagörüşünün formalaşmasında, həmçinin biliklərə yiyələnməsində müstəsna rol oynayır. Xüsusilə düşündürücü, məntiqli oyunlar və maraqlı fikir mübadiləsi yaradacaq söhbətlər, diskussiya xarakterli tədbirlər gənclərin düşüncə tərzinə müsbət təsir göstərir.

Məhz buna görə də yay tətili dövründə asudə vaxtın keçirilməsi diqqət mərkəzində olmalı, xüsusilə məktəblilərin növbəti dərs ilinə hazırlığı yüksəldilməlidir.

Bu, xüsusilə idmanla bağlı keçirilən oyunlar, hazırlıq tədbirləri, məşqlərdir. Belə oyunlardan biri də “Pusqu Qurdu” milli masaüstü idman oyunudur.

**BİBİXANIM.**

*Qəbələdə gəzməli yerlər: tarixi abidələr, istirahət mərkəzləri.*






QƏBƏLƏ SƏSİ

qəzetinə

2026-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*


## İTMİŞDİR

Qəbələ rayon Məmmədağalı kənd sakini **Məmmədov Bəxtiyar Siracəddin oğluna** məxsus **sürücülük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

Bakı şəhər sakini **Atayev Elnur Vaqif oğluna** məxsus MERSEDES E klass 77 TH 666 nömrəli minik avtomobilinin **dövlət qeydiyyat nişanı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Aqrar Islahat Komissiyası tərəfindən 2001-ci ildə Qəbələ şəhər sakini **Cəfərova Zərifə İbrahimxəlil qızına** verilmiş JN: 426 nömrəli, KOD: 40601004 olan **torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün** etibarsız sayılır.


Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 800*